# HACIQABUL

№ 01 (660)

17 yanvar 2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




### Ötən il ərzində yeni iqtisadi kursun hüquqi əsasları müəyyənləşdi

## Səmərəli iqtisadi islahatların mükəmməl qanunvericilik bazası

2016-cı il tarixdə qaldı. 2016-cı il ölkə iqtisadiyyatı üçün ən ağır illərdən biri olmuşdur. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə davam etmişdir. Bundan əlavə, neftin qiymətinin dünya bazarlarında üç-dörd dəfə aşağı düşməsi nəticəsində gəlirlərimiz kəskin şəkildə aşağı düşmüşdür. Belə bir vəziyyətdə biz ancaq ciddi islahatlar apararaq vəziyyətdən çıxış yolunu tapa bilərdik və buna nail olduq.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmişdir, iqtisadi sabitlik təmin edilmişdir və bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar gələcək inkişafımız üçün çox gözəl üfüqlər, perspektivlər açır. Onu da qeyd etməliyəm ki, bütün çətinliklərə baxmayaraq, ölkəmizin qeyri-neft sənayesi bu il 5 faiz, kənd təsərrüfatı isə 2 faizdən çox artmışdır. Biz bu il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox mühüm məsələdir. Çünki bizim iqtisadi potensialımız, maliyyə resurslarımız həm iqtisadi, həm siyasi müstəqilliyimizi müəyyən edir.

2016-cı ildə bütün sosial proqramlar artıqlaması ilə icra edilmişdir. Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində yeni qəsəbələr, şəhərciklər salınmışdır. Əhalinin pul gəlirləri, - baxmayaraq ki, 2016-cı il böhranlı ildir, - 7 faiz artmışdır, orta əməkhaqqı isə 9 faiz artmışdır.

Bir sözlə, bütün çətinliklərə baxmayaraq Azərbaycan 2016-cı ildə də inamla inkişaf etmişdir. Bir daha qeyd etmək istəyirəm, bu il qəbul etdiyimiz qərarlar, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar öz nəticəsini verəcəkdir. Eyni zamanda, biz ixracın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Çünki neft gəlirlərinin aşağı düşməsi nəticəsində bizim valyuta gəlirlərimiz azalıb və biz qeyri-neft ixracının inkişafı ilə bu boşluğu bərpa edə bilərik.

2016-cı ildə bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Bizim dostlarımızın sayı artıb, bizi istəməyən qüvvələr, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma “Dağlıq Qarabağ” qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2016-cı il bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacaqdır. 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha demişdim ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır.

2016-cı ildə bizim böyük idman qələbəmiz də olmuşdur. Rio Olimpiya Oyunlarında idmançılarımız tarixi qələbə qazanmışdır. 18 medal qazanaraq Azərbaycan bir daha sübut etdi ki, Azərbaycan idman dövlətidir və Azərbaycan idmançıları güclülərin sırasındadır. Medalların sayına görə Azərbaycan dünya miqyasında 200 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Azərbaycan Avropa ölkələri arasında 7-ci, postsovet məkanı ərazisində 2-ci, müsəlman aləmində isə 1-ci yerdədir. Bu, bizim böyük idman qələbəmizdir və eyni zamanda, bu qələbə xalqımızın, dövlətimizin gücünü göstərir.

Bu il biz müstəqilliyimizin 25 illiyini qeyd edirdik. Hərbçilərimiz, idmançılarımız bu bayram ilində bizə qələbə sevinci bəxş etmişlər.

2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində önəmli addımlar atılmışdır. “Cənub Qaz Dəhlizi” layihəsi uğurla icra edilir. Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası Bakıda keçirilmişdir və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğulamışlar. “Cənub Qaz Dəhlizi” Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihəsidir. Bu, tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılmışdır və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilmişdir və beləliklə, “Cənub” Qaz Dəhlizini qidalandıracaq layihələr arasında təkcə “Şahdəniz” layihəsi deyil, eyni zamanda, “Abşeron” qaz yatağı da olacaqdır.

Hesab edirəm ki, bu il biz nəqliyyat təhlükəsizliyi istiqamətində tarixi addımlar atmışıq. Bildiyiniz kimi, uzun illər davam edən Şərq-Qərb nəqliyyat dəhlizinin icrası artıq başa çatır və Şimal-Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atmışdır. Demək olar ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlər artıq görülübdür. Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq çalışacağıq ki, bu iki önəmli magistral tezliklə işə düşsün.

2016-cı ildə Azərbaycanda referendum keçirilmişdir. Referendum azad, şəffaf şəkildə aparılmışdır. Bütün exit-pollar referendumun rəsmi nəticələrini təsdiqləmişdir. Beynəlxalq müşahidəçilər də qeyd etmişlər ki, referendum azad, şəffaf şəkildə həyata keçirilmişdir, heç bir pozuntu olmamışdır və Azərbaycan xalqının iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Referendumun nəticələri bizim siyasətimizə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə, bu inama görə Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun.

2016-cı il Azərbaycanda “Multikulturalizm ili” elan edilmişdir. Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan bir daha dünyaya sübut etmişdir ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, bir səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan multikulturalizm ideyalarının dünyada təbliği işində müstəsna rol oynayan bir ölkədir.

## Hacıqabul rayonunun Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On doqquz min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 14,0 (on dörd) milyon manatı “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 yanvar 2017-ci il.*

## Prezidentimizə minnətdarıq

***Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2017-ci il tarixdə imzaladığı Sərəncam rayonumuzun Kürqırağı kənd sakinlərinin böyük sevincinə səbəb olmuşdur. Bununla əlaqədar həmin kəndlərin sakinləri tərəfindən redaksiyamıza çoxsaylı müraciətlər və məktublar daxil olmuş, kənd sakinləri ölkə Prezidentinə minnətdarlıq hislərini qəzetimiz vasitəsi ilə çatdırmağı xahiş etmişlər.***

***Bunları nəzərə alaraq məktublardan bir neçəsini oxucularımıza təqdim edirik.***

### Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Mən Meyniman kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyirəm.Sizin Hacıqabul rayonunun Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisi ilə bağlı Sərəncamınız bir təhsil işçisi kimi məni hədsiz sevindirdi.

Bu, Sizin rəhbərliyinizlə regionlarda aparılan uğurlu sosial-iqtisadi inkişafın bir davamıdır.

Cənab Prezident! Məktəbimizin müəllimləri Meyniman kəndinə avtomobil yolunun çəkilməsini yüksək sevinc hissi ilə qarşıladılar. Bütün pedaqoji kollektivimizlə birgə Sizə öz minnətdarlığımızı bildiririk.

Çiçəklənən Azərbaycanımızın inkişafı naminə yorulmaz fəaliyyətinizdə Sizə uğurlar, möhkəm can sağlığı, uzun ömür arzulayırıq.

**Hörmətlə:**

***Gülnarə Şirinova,***
***Meyniman kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi***

### Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yanvar ayının 5-də Hacıqabul rayonunun 10 yaşayış məntəqəsini birləşdirən, 19 min əhalinin yaşadığı ərazini əhatə edən Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisinin başa çatdırılması ilə bağlı imzaladığınız Sərəncam ərazidə yaşayan bütün kənd sakinlərinin hədsiz sevincinə səbəb olmuşdur.

Bilirik ki, Siz iki il bundan öncə də yolun çəkilişi üçün ilkin olaraq vəsait ayırmışdınız. Lakin bu gün tikintinin davam etdirilməsi və başa çatdırılması üçün imzaladığınız Sərəncam bizim ikiqat sevincimizə səbəb oldu. Siz həmişə olduğu kimi bu dəfə də öz vətəndaşlarınızın arzusunu gerçəkləşdirdiniz.

Bu qayğıya, xeyirxah əməlinizə görə bütün Talış kənd ziyalıları, ağsaqqalları Sizə təşəkkür edir, dövlətimizin və ölkəmizin gələcəyi naminə məqsədyönlü fəaliyyətinizdə uğurlar arzulayırıq.

**Hörmətlə:**

***Seyidzadə Muxtarov,***
***Talış Kür Su Təchizatı İdarəsinin növbə rəisi***

# Qəsəbəyə yeni su xətti çəkilmişdir





"Azərsu" ASC Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarına uyğun olaraq Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinə və "Azərsu" ASC-yə daxil olmuş müraciətlər əsasında Hacıqabul rayonunun içməli su problemindən əziyyət çəkən Navahı qəsəbəsində yeni su təchizatı sistemləri yaradılıb.

Navahı qəsəbəsində 1980-ci illərdə su şəbəkəsi yaradılıb, su təchizatı sistemləri uzun illər istismar olunduğundan yararsız vəziyyətə düşüb və qəsəbəni tam əhatə etməyib. Sakinlərin böyük əksəriyyəti içməli suya olan tələbatını fərdi qaydada ödəmək məcburiyyətində qalıblar.

Bu günlərdə isə qəsəbəyə yeni su xətti çəkilmişdir. Qəsəbəyə içməli suyun verilməsi mərasimində Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Aslan Səmədov iştirak etmiş, bölgələrdə həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyətindən danışmış, ölkə rəhbərliyinin şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərin də içməli su təchizatının yaxşılaşdırılmasını daim diqqətdə saxladığını vurğulamışdır.

"Azərsu" ASC-nin "Birləşmiş Sukanal" MMC direktorunun müavini Ramin Sadıqov kənd yaşayış məntəqələrinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə həyata keçirilən layihələr barədə məlumat vermiş və bu tədbirlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması barədə tapşırıqlarına uyğun olaraq bölgələrdə genişmiqyaslı işlər həyata keçirildiyindən danışmış, bir neçə il öncə Hacıqabul şəhərində yeni layihə icra edildiyini, şəhərdə uzun illər mövcud olmuş içməli su probleminin həllinin bu gün tapıldığını vurğulamışdır. Qeyd etmişdir ki, növbəti mərhələdə kənd və qəsəbələrin içməli su təchizatının yaxşılaşdırılması nəzərdə tutulub. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinə və "Azərsu" ASC-yə daxil olmuş müraciətlər əsasında Hacıqabul rayonunun Navahı qəsəbəsində yeni layihənin icrasına başlanılıb və qısa müddətdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb.

Tədbirdə çıxış edən qəsəbə sakinləri də içməli su probleminin həllinə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

Hacıqabul rayonunun Navahı qəsəbəsini içməli su ilə təmin etmək üçün mənbə olaraq Kür-Bakı su kəməri seçilib. Bu kəmərdən Navahı qəsəbəsinə müxtəlif diametrli polietilen borularla 2,4 kilometr magistral su xətti çəkilib. Eyni zamanda, qəsəbə daxilində 5 kilometrlik yeni su şəbəkəsi yaradılıb, 300-ə yaxın ünvana birləşmə verilib. Bununla da 2300 nəfər əhalisi olan qəsəbənin içməli su təchizatı yaxşılaşdırılmışdır.

*Xalqımızın qəhrəmanlıq salnaməsi*

## 20 yanvar faciəsi yaxınlaşdıqca...

Hər il yanvar ayı gələndə xalqımız ən kədərli, lakin tarixin yaddaşına qəhrəmanlıq salnaməsi kimi daxil olmuş bir günü yaşayır. Bu 20 yanvar faciəsidir.

1990-cı ilin qanlı yanvar hadisələri Azərbaycan xalqının milli bütövlüyünü təsdiqləyən ən böyük hadisələrdən biri kimi tarixin yaddaşına əbədi həkk olunmuşdur.Yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyası törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş birini də əlavə etdi. Həmin gecə Bakıya yeridilən sovet ordu hissələri xalqımıza vəhşicəsinə divan tutdu. Bu müdhiş gecədə xalqımız böyük bir faciə ilə üzləşsə də, özünün vətənə, torpağa sədaqətini, qəhrəmanlığını, azadlıq və müstəqillik yolunda mübarizə əzmini, sarsılmazlığını bir daha nümayiş etdirdi. Həmin gün öz ölkəsinin, xalqının azadlığının şərəf və ləyaqətini uca tutan vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər. Vətənin azadlığı, suverenliyi uğrunda özlərini qurban verən şəhidlərin xatirəsi hər zaman qəlbimizdə yaşayacaqdır.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonrakı illərdə başları hakimiyyət uğrunda mübarizəyə qarışmış respublikanın o vaxtkı rəhbərləri 20 yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız 1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam hüquqi-siyasi qiymət verildi və faciənin günahkarları açıq şəkildə bəyan edildi.

İndi Bakının ən yüksək yerində hər bir azərbaycanlının müqəddəs and yerinə çevrilmiş bir məkan var. Bu 20 yanvar faciəsi qurbanlarının və Ermənistan hərbi təcavüzünə qarşı döyüşlərdə şəhid olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır.

Hər il yanvar ayının 20-də minlərlə insan Vətənin azadlığı, suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün bu məkanı ziyarət edir.

Nəsillər dəyişəcək, lakin Vətən övladlarının xatirəsi daim ürəklərdə yaşayacaqdır.

Bu faciəli gündən illər ötsə də xalqımız onu heç vaxt unutmur. Hər il 20 yanvar faciəsi respublikamızın bütün bölgələrində, eləcə də dünyada yaşayan soydaşlarımız tərəfindən ümumxalq hüzn günü kimi anılır, şəhidlərimiz böyük kədər hissi ilə yad edilir.

20 yanvar faciəsihəm ümumxalq faciəsi, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olundu.

Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bu təcavüz xalqımızı mənəvi cəhətdən sarsıtsa da, itkilərə məruz qoysa da onun mənliyini, ləyaqətini tapdalaya bilmədi, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı. Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi olaraq!




Həmin gün rayonumuzda da ümumrayon hüzn günü qeyd olunur, şəhidlərimizin qəbri ziyarət olunur, al qərənfillərə bürünür, rayonun ayrı-ayrı əmək kollektivlərində 20 yanvar hadisələri ilə əlaqədar anım mərasimləri keçirilir.

20 yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsinə dair Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Tədbirlər Planının icrasını təmin etmək və faciənin 27-ci ildönümünə həsr olunmuş rayon tədbirlərinin hazırlanıb keçirilməsini təşkil etmək məqsədi ilə rayon İcra Hakimiyyəti Başçısı Aparatında Tədbirlər Planı hazırlanmış, 20 yanvar hadisələrinin mahiyyətini rayon əhalisinə daha yaxından çatdırmaq məqsədi ilə idarə, müəssisə, təşkilat və özəl qurumlarda keçiriləcək anım mərasimlərinin, tədbirlərin qrafiki təsdiq olunmuşdur.

Tədbirlər Planına əsasən rayonun ayrı-ayrı əmək kollektivlərində, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində 20 yanvar şəhidlərinin xatirəsinin anılması və müxtəlif səpkili tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bütün bu tədbirlər yanvarın 20-də rayonumuzun Dağüstü massivində salınmış Şəhidlər Xiyabanı Abidə Kompleksində ümumrayon hüzn günü ilə əlaqədar anım mərasiminin keçirilməsi ilə yekunlaşacaqdır.

***"Hacıqabul"***

## Xalqımızın qan yaddaşı

Rayon Tarix - Diyarşünaslıq Muzeyində 20 Yanvar faciəsinin 27 - ci ildönümü ilə əlaqədar silsilə tədbirlərə başlanılmışdır.

Rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin kollektivi və Mərkəzdən yararlanan ailələrin övladlarının və şagirdlərin iştirakı ilə keçirilmiş tədbirdə 20 Yanvar faciəsilə bağlı fotomaterial və sənədlərdən təşkil edilmiş ekspozisiya təşkil edilmiş, faciə ilə əlaqədar mühazirə oxunmuş və videomaterial nümayiş etdirilmişdir.




Şagirdlər 20 Yanvara həsr edilmiş şeirlər ifa etmişlər.

***Məhəmməd İsayev,***
***rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru***

## Əl işlərindən ibarət sərgi nümayiş olundu

Bu günlərdə rayon Heydər Əliyev Mərkəzində Rəsm və Xalça-Toxuculuq kursunun üzvlərinin əl işlərindən ibarət sərgi nümayiş olundu və kursu bitirənlərin vəsiqələrinin təqdimatı keçirildi.



Tədbirdə qeyd olundu ki, bu gün artıq Mərkəzdə sayca 3-cü buraxılış keçirilir. Belə ki, 2014-cü ilin mart ayından Heydər Əliyev Mərkəzində rəsm və xalça-toxuculuq kursları fəaliyyət göstərməyə başlamış, 2015-ci ildə birinci, 2016-cı ildə isə 2-ci buraxılış olmuşdur. Bu il 10 nəfər 3 xalça-toxuculuq və 7 nəfər rəsm kursunu bitirir. Kurslarda gənclərin asudə vaxtının səmərəli keçməsi üçün hər bir şərait var. Bundan əlavə Mərkəzdə ingilis dili, rus dili, kompyuter bilikləri kursları, kiçik rəssamlar, gənc texnoloqlar kursları fəaliyyət göstərir.

2015-ci il Bakıda Elmi Metodiki Mərkəzin Bayraq günü münasibəti ilə təşkil etdiyi sərgidə rəsm kursumuzun iki üzvü 10 rəsmlə iştirak etdi. İxtiyar İbrahimov Respublika ikincisi oldu. Diplom və hədiyyə ilə mükafatlandırıldı, Aztv-də "Səhər" verlişinə dəvət olundu. Rəsm müəllimi Fəridə xanım Fəxri Fərmanla təltif edildi. 2016-cı ildə isə 2 kiçik rəssamımızın əl işi Yunanıstanın Ksanfi şəhərinə sərgiyə göndərildi.

Mərkəzin bələdçisi Xanımana Abdullayeva kursların, dərnəklərin fəaliyyəti barədə geniş məruzə ilə çıxış etdi. Xalçatoxuculuq müəllimi Zenfira Məmmədova və rəsm müəllimi Heyran Xancanova kursu bitirənləri təbrik etdi, onlara vəsiqələr təqdim olundu.

Tədbirin sonunda kurs üzvlərinin əl işlərindən ibarət sərgiyə tamaşa edildi və xatirə şəkilləri çəkildi.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev Mərkəzin direktoru***

*Nüsrət Kəsəmənli - 70*

## Ədəbi-bədii gecə keçirildi



Bu yaxınlarda şəhər 2 saylı tam orta məktəbində Müasir Azərbaycan ədəbiyyatının şair və publisisti Nüsrət Kəsəmənlinin 70 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir. Tədbirdə şairin həyatından, ədəbi fəaliyyətindən, uşaqlıq və tələbəlik illəri xatirələrindən danışıldı.

Şagirdlər həzin melodiyaların müşayiəti altında şairin ürəktitrədən şeirlərini söylədilər, şeirlərinin sözlərinə bəstələnmiş "Biri vardı, biri yox", "Nə olar Allahım, ayırma bizi", "Sən məni unuda bilməyəcəksən" mahnılarını səsləndirdilər.

***Kubra Quliyeva,***
***şəhər 2 saylı tam orta məktəbin dil ədəbiyyat müəllimi***

# 20 Yanvar - Azərbaycan tarixinin qanla yazılmış qəhrəmanlıq səhifəsi

Rayon Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinə həsr olunmuş " 20 Yanvar - Azərbaycan tarixinin qanla yazılmış qəhrəmanlıq səhifəsi" adlı tədbir keçirildi.Tədbirdə təhsil, mədəniyyət işçiləri, məktəblilər iştirak edirdilər.

Tədbirdə şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildi. Xalqımızın 20 yanvar gününü təkcə hüzn kimi yox, həm də qəhrəmanlıq günü kimi qeyd etdiyi vurğulandı. Həmin gün küçələr, meydanlar azadlıq arzusunda, istəyində olan soydaşlarımızın qanına boyansa da, oğul və qızlarımız sovet ordusunun qəddarlığı, amansızlığı ilə üz-üzə dayansa da geri çəkilmədilər. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı milli mənliyini qorumaq üçün canlarından keçən övladları ilə fəxr edir.

Şəhər 10 saylı tam orta məktəbin şagirdi Gilas Mehdiyeva, Mərkəzi kitabxananın Uşaq şöbəsinin kitabxanaçısı Səkinə Qarayeva geniş məruzə ilə çıxış etdilər.

"19 yanvar və 1 gün sonra" sənədli filminə tamaşa edildi. Sonda Heydər Əliyev Mərkəzinin dərnək üzvlərinin 20 yanvar faciəsinə həsr etdikləri əl işlərindən ibarət sərgiyə tamaşa edildi.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev Mərkəzinin direktoru***



# "Uşaq hüquqları aylığı" çərçivəsində silsilə tədbirlər keçirilmişdir

BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində respublikamızda "Uşaq hüquqları aylığı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlanmış və ay ərzində rayonun ümumtəhsil məktəblərində silsilə tədbirlər keçirilmişdir.

"Uşaq hüquqları aylığı" çərçivəsində sinif saatlarında bu mövzuda müzakirələr təşkil edilmiş, məktəblərdə tarix müəllimlərinin iştirakı ilə mühazirələr və açıq dərslər keçirilmişdir. Keçirilən seminar və dəyirmi masalarda bu mövzuda geniş diskussiyalar aparılmış, şagirdlərin uşaq hüquqları ilə bağlı fikirləri dinlənilmiş, onların rəy və təklifləri öyrənilmişdir.

"Uşaq hüquqları aylığı" çərçivəsində "Uşaq hüquqları Konvensiyası", "Uşaq huquqları haqqında Azərbaycan Respublikasının Qanunu" haqqında şagirdlərin məlumatlandırılması, "Sən öz hüquqlarını bilirsənmi?" mövzusuda dəyirmi masaların keçirilməsi, "Mənim hüquqlarım məni qoruyur" mövzusunda inşa müsabiqəsi və rəsm sərgisinin, disskusiyaların, idman yarışlarının təşkili, keçirilən təbrilər haqqında məqalələrin mətbuatda dərc olunması təşkil olunmuşdur.

"Uşaq hüquqları aylığı" ilə bağlı maarifləndirmə tədbirləri, dəyirmi masalar, uşaq hüquqlarının təbliğinə xidmət edən treninq-seminarlar keçirilmişdir.

Aylıq çərçivəsində rayonun məktəbdənkənar təhsil müəssisələrində-Uşaq Gənclər Şahmat İdman Məktəbində "Uşaq hüquqları aylığı"na həsr olunmuş şahmat turniri, Uşaq Yaradıcılıq Mərkəzində "Uşaqların müdafiəsi onların gələcəyinin təminatıdır" mövzusunda rəsm müsabiqəsi keçirilmişdir. Uşaq Gənclər İdman Məktəbində "Uşaqların həyatı və sağlamlığının mühafizəsi hüququ" adlı məktəblilər arasında boks yarışı keçirilmişdir.

***Günel Mustafayeva,***
***rayon Təhsil Şöbəsinin metodisti***

***Unutsaq, unudularıq***

# Solmaz müəlliməni xatırlayarkən...

O, 1952-ci il dekabrın 16-da Navahı kəndində Ərəstun müəllimin ailəsində dünyaya göz açmışdı. Navahı kənd orta məktəbini bitirdikdən sonra 1970-1974-cü illərdə Əli Bayramlı (indiki Şirvan)şəhər Pedaqoji Texnikumunda təhsil almışdı.1974-cü ildə ailə qurması ilə əlaqədar Solmaz müəlliməhəmin ildən etibarən Kürçülü kənd məktəbində ibtidai sinif müəllimi kimi əmək fəaliyyətinə başlayır. Solmaz müəllimə uşaq psixologiyasını çox aydın dərk etdiyinə görə I-IV siniflər üzrə şagirdlərə ana dilinin saflığını, zənginliyini izah etməklə, şair və ədiblərimizin uşaqlar üçün qələmə aldığı əsərləri həvəslə tədris edirdi.

A.Şaiqin, Ə.Haqverdiyevin, A.Səhhət, S.Ə.Şirvani, S.Vurğunun kiçik hekayə və şerlərini böyük həvəslə uşaqlara öyrətməyə çalışan Solmaz müəllimə qısa müddət ərzində öz peşəsinə məsuliyyətlə yanaşması, mehriban davranışı ilə Kürçülü kənd məktəbində kollektivin dərin hörmətini qazandı. 1981-ci ildə Solmaz Ramazanova Atbulaq kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirir.

Atbulaq kəndi Qarabağ münaqişəsində ən çox şəhid vermiş kəndlərimizdəndir. Torpaqlarımızın ərazi bütövlüyü, Vətənimizin istiqlaliyyəti namınə döyüşlərdə Atbulaq kənd orta məktəbinin 14 məzunu şəhid olmuşdur. Atbulaq şəhidlərinə həsr olunmuş foto-stendlərin, güşələrin tərtib olunmasında mərhum Solmaz müəllimə çox fəal iştirak etmişdir. Həmin şəhid balaların hamısı Solmaz müəllimənin dərs dediyi şagirdlər idi.

Solmaz müəllimə haqqında aydın təsəvvür yaratmaq üçün birinci növbədə Atbulaq kənd orta məktəbinə müxtəlif vaxtlarda rəhbərlik etmiş şəxslərlə görüşdük, Solmaz müəllimənin



bir insan kimi, bir pedaqoq kimi onların xatirində necə iz buraxdığını öyrəndik.

1981-1984-cü illərdə kənd məktəbinin direktoru olmuş Tapdıq Zərbəliyev:

-Solmaz müəllimə əvvəla, gözəl insan idi, şagirdləri cani dildən öyrədən tələbkar müəllim idi. O, dərs dediyi şagirdləri övladlarından ayırmırdı.

Solmaz müəllimə ilə daha çox birlikdə çalışmış, 24 il fasiləsiz Atbulaq kənd orta məktəbinin direktoru işləmiş Bəyməmməd İsmiyev deyir:

-Bilirsiniz, qadın ziyalı olanda ikiqat gözəl görünür. Solmaz müəllimə pak mənəviyyatlı, təmiz əxlaqlı, xoş rəftarlı qadın, mehriban ana, gözəl müəllim idi. Onun hər sözü, hər hərəkəti, elə bil, "ziyalı necə olmalıdır?" sualını cavablandırırdı.

Solmaz müəllimə səhhəti ilə əlaqədar olaraq 2012-ci ildə məktəbdən ayrılmış, 2013-cü il fevralın 4-də dünyasını dəyişmişdir.

1994-2002-ci illərdə pedaqoji kollektivə rəhbərlik etmiş Mübariz Eyvazov:

-Solmaz Ramazanova işində məsuliyyətli, nizam-intizamlı müəllimələrimizdən biri idi. Rayonda, məktəbdə keçirilən tədbirlərdə fəal iştirak edirdi.

Solmaz müəllimənin həmkarları, onunla birlikdə çiyin-çiyinə işləmiş, ibtidai sinif müəllimləri Rəsmiyyə Novruzova, Ramilə Rüstəmova, Vəfa Zairova Atbulaq kənd orta məktəbinin tədris hissə müdiri Aygün Hüseynova Solmaz müəllliməni kövrək hisslərlə yad edib bildirdilər ki, o, pedaqoji məsləhət və tövsiyyələrini heç vaxt gənclərdən əsirgəmirdi, onun vaxtsız həyatdan köçməsi tək ailəsini, övladlarını yox, bütün kənd sakinlərini, kollektivdə hər kəsi ağrıtdı, kədərləndirdi. Qocaman pedaqoq Yusif Teymurov, müəllimlərdən İbadulla Zairov, Nurməmməd Xanmuradov mərhum Solmaz müəllimə barədı xoş xatirələr söylədilər. Qeyd etdilər ki, vaxtilə dərs dediyi şagirdlərinin sorağı ali məktəblərdən gələndə Solmaz müəllimənin sevinci yerə-göyə sığmırdı.

Solmaz müəllimənin oğlu Babəklə söhbət edirik- Bütün analar gözəldir, müqəddəsdir, ancaq mənim anam mənim üçün dünyanın ən möhtəşəm qadını, əvəzolunmaz insanı idi-deyir və kövrəlir.

Burda ölməz şairimiz Məmməd Arazın analara həsr etdiyi şeri yadıma düşür:

- Necə yad görünür bu yerlər mənə,
- İlk dəfə qarşıma çıxmadı anam.
- İlk dəfə anamsız açdım səhəri,
- İlk dəfə anamsız düşəcək axşam.

Beləcə bir insan ömrünü vərəqlədik. Doğrudan da, hər bir insan həyatı oxunmamış kitabdır. Qayğıkeş pedaqoq, gözəl insan, mehriban ana Solmaz müəllimə onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

***Nazim Fətixanoğlu***

# Şənlik uşaqların qəlbində silinməz xatirəyə çevrildi



Şəhərimizdə yeni il və həmrəylik günü ilə əlaqədar silsilə tədbirlər yaddaqalan oldu. Şəhər 9 saylı tam orta məktəbdə keçirilən bayram şənliyində təhsil ocağının pedaqoji və şagird kollektivi, valideynlər iştirak edərək, bir neçə saat uşaqlarla birlikdə olmuş, onların sevinc və fərəhini bölüşmüşdür. Bayırda soyuq qış havası olmasına baxmayaraq, məktəblilərin rəngarəng çıxışları, Şaxta baba və Qar qızın təbrikləri, milli mənəvi dəyərlərimizi tərənnüm edən kompozisiyalar şənliyə xoş bir abu-hava, isti çalar qatmışdı. Bayram şənliyinə toplaşmış uşaqların, onları müşayiət edən böyüklərin çöhrələrində bu gözəl bayram şənliyini onlara ərməğan edən, onlara bilik-savad verən məktəb kollektivinə minnətdarlıq hissləri aydın hiss olunurdu.

Yeni illə bağlı göstərilən səhnəciklər, "Turpun nağılı", "Qırmızı papaq", "Meymun və xoruz", "Fəsillərin mübahisəsi" səhnəcikləri, eyni zamanda fəsillərin, xüsusilə də qış fəslinin gözəlliklərini tərənnüm edən şeirləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı. Məktəblilər xarici dildə mahnı, şeir nümunələri səsləndirərək bu sahədə də öz istedadlarını nümayiş etdirdilər. Balaca istedadlar öz oynaq, şux mahnıları, rəqsləri ilə bayram tədbirini daha da rövnəqləndirirdilər. Rəqslərə qoşulan, bəzəkli yolka ətrafında yallı gedən, məharətlərini göstərən uşaqların sevinci həddsiz idi. Çünki yaradılmış bu gözəlliklər, bir-birindən maraqlı çıxışlar, xoş sözlər, bayram təbrikləri məhz onlara ünvanlanmışdı.

Uşaqların sevincinə şərik olan məktəbin direktoru Elbrus Əliyev onları bu bayram münasibətilə təbrik etdi. Öz istedadlarını nümayiş etdirən, hərtərəfli biliyə malik uşaqların doğma Azərbaycanımızın gələcəyi, nurlu sabahı olduğunu vurğuladı.

Yeni il şənliyi bu dəfə də uşaqların qəlbində silinməz xatirəyə çevrildi. Sonda şənlik iştirakçıları Yeni il yolkasının ətrafında Şaxta baba və Qar qızla birlikdə xatirə şəkilləri çəkdirdilər.

***Səadət Kərimova***

# Tariximizi öyrənirik




Rayon Gənclər və İdman İdarəsi tərəfindən şəhər 5 saylı tam orta məktəbdə "Tarixi təcrübə" adlı layihə çərçivəsində təlim keçirilmişdir.Təlimdə 30 nəfər gənc iştirak etmişdir. Təlim tariximizə əsaslanaraq, Azərbaycanın tarix salnaməsindən, keçdiyi tarixi yolların xronologiyasının nə dərəcədə gənclərin yaddaşında həkk olunmasından ibarət mövzuda təşkil edilmişdi.

Mövzu gənclərlə ətraflı müzakirə edildi və fikir mübadiləsi aparıldı.

Tarix təkrarlanır, fikirlər isə yenilənir.Məqsəd, gələcəyimiz olan gənclərimizin yeni düşüncə tərzini Azərbaycan tarixinə yönəltmək idi.

Sonda iştirakçılara maarifləndirici bukletlər paylanıldı.



# Erkən nikahlara "yox" deyirik!

Rayon Gənclər və İdman İdarəsi şəhər 8 saylı Humanitar fənlər təmayüllü məktəbliseydə "Erkən nikahların səbəbləri və mənfi nəticələri" mövzusunda maarifləndirmə tədbiri keçirmişdir.

Tədbirdə erkən nikahın mənfi nəticələrindən və cəmiyyətimiz üçün törətdiyi fəsadlardan danışıldı.Diskussiya şəraitində keçirilən tədbirdə mövzu gənclərlə ətraflı müzakirə edildi. Gənclər mövzu haqqında müstəqil fikir bildirdilər.

Sonda iştirakçılara "Erkən nikahlara yox deyək!" adlı qısametrajlı film nümayiş etdirildi.

***Xalid Rəcəbli,***
***rayon Gənclər və İdman İdarəsinin Baş məsləhətçisi***

# HACIQABUL

№ 01 (660) 17 yanvar 2017-ci il


## 2017-ci ildə rayon prokurorluğunun əməkdaşları tərəfindən vətəndaşların yaşayış yerlərində qəbulu günləri

| S/№ | Qəbul yeri | Qəbul tarixi | Qəbul edən şəxsin soyadı, adı və vəzifəsi |
|---|---|---|---|
| 1. | Hacıqabul şəhər İƏD-si | 25.01.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 2. | Hacıqabul rayonu,Muğan qəsəbə İƏD-si | 16.02.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 3. | Hacıqabul rayon Talış kənd İƏD-si | 14.03.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 4. | Hacıqabul rayon Ələtli qəsəbə İƏD-si | 25.04.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 5. | Hacıqabul rayon Abdulabad kənd İƏD-si | 25.05.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 6. | Hacıqabul rayon Meyniman kənd İƏD-si | 21.06.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 7. | Hacıqabul rayon I Udulu kənd İƏD-si | 13.07.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 8. | Hacıqabul Navahı kənd İƏD-si | 18.08.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 9. | Hacıqabul rayon Rəncbər kənd İƏD-si | 18.09.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 10. | Hacıqabul rayon Şorbaçı kənd İƏD-si | 20.10.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 11. | Hacıqabul rayon Ələtli kənd İƏD-si | 24.11.2017 | Rayon prokuroru Rövşən Maqsudov |
| 12. | Hacıqabul rayon Qarasu kənd İƏD-si | 22.12.2017 | Rayon prokuroru Rövşən Maqsudov |

# Gələcəyin üçün gəncliyini qoru!

Türkiyə Universitetləri Məzunları İctimai Birliyi (TUMİB) Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə reallaşdırdığı "Gəncliyini qoru gələcəyin üçün!" layihəsi çərçivəsində rayonumuzda maarifləndirici tədbir keçirdi. Layihənin keçirilməsində məqsəd gənclər arasında sağlam həyat tərzi və reproduktiv sağlamlıq mövzusunda maarifləndirmə işinin aparılmasıdır. Tədbirdə rayonun idarə və təşkilatlarının, rayon ictimaiyyətinin, rayonun ümumtəhsil məktəblərinin pedaqoji və şagird kollektivləri iştirak edirdi.

Tədbirdə çıxış edən RİHBA-nın məsul işçisi İmaməddin İmanov, TUMİB-in sədri Çingiz Bayramov, TUMİB-in üzvü Pərviz Səmədov, TUMİB-in hüquq mərkəzinin əməkdaşı Orxan Vəliyev bildirdilər ki, gənclər zərərli vərdişlərdən uzaq olmaqla cəmiyyətin inkişafına layiqli töhfə verə bilərlər. Dövlətimiz tərəfindən gənclər arasında sağlam həyat tərzi və reproduktiv sağlamlıq sahəsində ciddi iş görülür. QHT-lər də bu prosesdə yaxından iştirak edir, Azərbaycanın gələcəyi üçün sağlam nəsillərin yetişməsinə öz töhfəsini verir. Sağlam nəsil isə fiziki və mənəvi cəhətdən sağlam olan gəncliyin sayəsində yarana bilər. Buna görə də sağlamlığımızın qeydinə qalmaq hər birimizin ümdə vəzifəsinə çevrilməlidir. Yeniyetmə və gənclər asudə vaxtlarını səmərəli keçirməli, tez-tez fərdi təşəbbüslərlə çıxış etməli, öz ideyalarını reallaşdırmağa can atmalıdırlar.

Diskussiya şəraitində davam edən görüşdə tədbir iştirakçılarının mövzu ilə əlaqədar fikirləri dinlənildi, onları narahat edən məsələlərə aydınlıq gətirildi.

***Səadət Kərimova***

# Voleybol yarışı keçirildi



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə TİAHİ rayon komitəsi UGİM-lə birgə şəhər birinciliyi üzrə voleybol yarışı keçirmişdir. Yarışda şəhər ümumtəhsil məktəblərinin müəllimləri iştirak edirdi. Yarışın qalibləri TİAHİ rayon komitəsi və UGİM tərəfindən Diplom və qiymətli hədiyyələrlə təltif edildi.

***Kifayət Əmirbəyova, TİAHİ rayon komitəsinin sədri***

# Mənzillərinizi yanğından qoruyun

***Od insanları işıq və istiliklə təmin edir. Yer üzərində odsuz yaşamaq qeyri mümkündür. Od hər yerdə və hər zaman lazımdır. Lakin odla düzgün davranmadıqda o insanın düşməninə çevrilir, ağılagəlməz müsibətlərə, faciələrə səbəb olur. İnsanlar od əldə etdikləri gündən ondan istifadə etdikləri kimi onunla mübarizə də aparıblar. Yanğına qarşı mübarizə yanğın təhlükəsizliyi qaydalarına düzgün riayət etməkdən başlanır. Yaşayış evlərində yanğınlar od ilə ehtiyyatsız davranmanın müxtəlif növlərindən, məişətdə işlədilən elektrik qızdırıcı cihazlarından, həmçinin təbii və mayeləşdirilmiş qaz ilə işlədilən cihazlardan düzgün istifadə edilmədikdə baş verir.***

Artıq qışın kəskin soyuqları başlayıb. Yaşayış evlərinin isidilməsində elektrik və qaz cihazlarından, eləcə də müxtəlif yanacaqla işləyən sobalardan istifadə olunur. Bütün bunlar mənzillərdə yanğın təhlükəsizliyi qaydalarına vətəndaşlar tərəfindən əməl olunmasına daha çox məsuliyyət tələb edir. Uşaqların od ilə dəcəlliyi mənzillərdə yanğınlara səbəb olur. Uşaqları mənzildə və yaxud soba olan otaqda tək qoyub qapını bağlamaq olmaz, yanmaqda olan sobaya və qızdırıcı cihazlara nəzarət etməyi onlara tapşırmaq olmaz.

Qış mövsümündə elektrik verilişində bəzi hallarda fasilələr yarandığından mənzilləri işıqlandırmaq məqsədilə şamdan və neft lampasından istifadə edirlər, bu zaman adi ehtiyyat tədbirləri tamamilə unudulur. Bəzən vətəndaşlar tərəfindən mənzillərdə şamdan istifadə edərkən şam yanmayan altlıqlar üzərində deyil, papiros və ya kibrit qutuları üzərində, stolda və ya pəncərə altı taxta üzərində yapışdırılaraq yandırılır, eləcə də onları nəzarətsiz qoyub gedirlər. Bu zaman şam yıxıla bilər, əgər yanmaqda davam edərsə, yanğın onun altındakı yanar konsturuksiyalara keçərək inkişaf edər. Bəzən də şamları istilik nəticəsində parçalana bilən altlıqlar üzərində qoyurlar ki, nəticədə şam yanıb qurtararkən öz altlığını sındıraraq yanğının baş verməsinə səbəb olur. Odur ki. mənzillərdə şamdan istifadə edərkən, onları sabit metal şamdana taxmaq lazımdır. Təhlillər göstərir ki, baş vermiş yanğınların bir hissəsi elektrik avadanlıqlarının quraşdırılması və istismarı qaydalarına düzgün riayət edilməməsi nəticəsində baş vermişdir. Elektrik təsərrüfatında yanğınlar əsasən 3 səbəbdən baş verir: artıq yüklənmədən, qısa qapanmadan və yüksək keçirici müqavimətdən. Elektrik dövrəsinin artıq yüklənməsi yanğına səbəb olan əsas amillərdən biridir. Belə ki, elektrik xəttindən cərəyan keçərkən həmişə hərarət əmələ gəlir. İşlədiləcək elektrik cihazlarının nominal gücünə uyğun müvafiq en kəsikli elektrik naqilləri seçilməlidir. Əks halda elektrik naqili həddən artiq qızaraq naqilin izolyasiyasının keyfiyyətini tədricən itirir, bu da öz növbəsində elektrik təsərrüfatında qəza yaranmasına və yanğın baş verməsinə səbəb olur. Belə hal bir rozetkaya bir neçə elektrik cihazı qoşulduqda da baş verə bilər. Elektrik təsərrüfatından baş verən yanğınların səbəblərindən biridə qısa qapanmadır. Qısa qapanma izolyasiya olmayan və ya izolyasiyası zədələnmiş naqillərin bir-birinə toxunması nəticəsində baş verir. Bu zaman naqillər o qədər qızır ki, metal damarlar əriyərək qığılcım yaradır. Qısa qapanma baş vermiş hissənin yaxınlığında yana bilən konstruksiyalar dərhal alışır. Elektrik şəbəkəsində yüksək keçirici müqavimətin yaranması nəticəsində baş vermiş yanğınlarla tez-tez rastlaşırıq. Yüksək keçirici müqavimət, naqillərin sonluqlarının birləşdirilməsi xüsusi bərkidicilərlə həyata keçirilmədikdə, həmçinin nasaz elektrik rozetkaları və çəngəllərində olan boşluqlar nəticəsində yaranır. Hər bir vətəndaş bilməlidir ki, qısa qapanma və həddən artıq yüklənmə nəticəsində mənzillərdə baş verəcək yanğınların qarşısını almaq üçün müəyyən yükə hesablanmış əriyən qoruyucu və ya avtomatik açar quraşdırılmalıdır. Qısa qapanma və ya həddən artıq yüklənmə olduqda qoruyucunun əriyən məftili, naqillər təhlükəli temperatura çatmamış qırılır və təhlükənin qarşısı alınır. Əsasən yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı vətəndaşlar elektrotexniki norma və qaydaların tələblərini pozurlar. Belə ki, həmin işlərin mütəxəssis elektriklər tərəfindən deyil, özləri və ya digər bu işi bilməyən insanlar tərəfindən çəkilməsinə və qurulmasına yol verirlər. Bu zaman elektrik xətlərinin yanar konstruksiyalar üzərində çəkilməsinə, qoruyucu və avtomatların düzgün olmayan yerlərə bərkidilməsi xətlərdə baş vermiş hər hansı qəza zamanı yanğınlarla nəticələnir.

Bir çox yaşayış evlərində təbii və maye qazla işləyən müxtəlif cihazlardan istifadə olunur. Məişətdə işləyən qaz cihazlarından törənən yanğınların əsas səbəbi boru kəmərindən, birləşmə qovşaqlarında kipliyin pozulması və qaz sobalarının odluqlarından qazın sızmasıdır. Mayeləşdirilmiş qaz təbii qazdan daha çox yanğın təhlükəli xassələrə malikdir. Qaz balonları qızdırıcı cihazlardan ən azı bir metr kənarda yerləşdirilməlidir. Belə balonları qızdırmaq, zir-zəmidə saxlamaq qəti qadağandır. Mənzillərinizdə qaz sızmasını hiss etdikdə ümumi qaz kranını bağlamaq, mənzilin havasını təmizləmək üçün qapı-pəncərələri açaraq hava cəryanı yaratmaq lazımdır. Bu zaman mənzillərdə elektrik işlədicilərini dövrəyə qoşmaq və ya dövrədən ayırmaq olmaz. Maye qaz balonlarından istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması nəticəsində bir çox yanğın və partlayış hadisələri ilə rastlaşırıq. Qış mövsümündə bir çox yaşayış evlərində bərk yanacaqla işləyən sobalardan istifadə olunur. Sobalar qurularkən, həmçinin istismar edilərkən yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmalıdır. Yanğın Təhlükəsizliyi standartlarının tələblərinə və texniki şərtlərə cavab verməyən sobalardan istifadə olunmasına icazə verilmir. Sobalar yanmayan və istilik keçirməyən altlıqlar üzərində qurulmalı, onun qalama qapısı önündə döşəməyə 70x50 sm ölçüdən kiçik olmayan metal təbəqə ilə mismarlanmalıdır. Qalanmış sobanı nəzarətsiz və ya az yaşlı uşaqların nəzarəti altında qoymaq qadağandır. Sobanın ətrafinda odun qurutmaq, sobaya həddən artıq odun atmaq, sobaları tez alışan mayelərlə qalamaq qəti qadağandır.

Yanğın hadisələrindən həyatınızı və əmlakınızı qorumaq üçün, mənzillərinizdə nəzərdə tutulmuş yanğın təhlükəsizlik qaydalarına düzgün əməl edilməsindən çox aşlıdır. Qeyd olunan yanğın təhlükəsizlik qaydalarının gözlənilməsi həyatınızı və əmlakınızı yanğından qorumağa tam əsas verir. Hər bir vətəndaş Yanğın Təhlükəsizlik Qaydalarına düzgün əməl olunmasına görə məsuliyyət daşıyır.

***FHN DYNX-nın Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

## Elan

Rayon Aqrar İslahat Komissiyasının 25 noyabr 1997-ci il tarixli qərarı ilə Qafarov Şottu Bəkdəmir oğlunun adına verilmiş JN-132F, kodu 91003018 olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bağırov Ağabala Əşrəf oğlunun adına verilmiş JN-369 nömrəli həyətyanı torpağın Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Məmmədova Şəfiqə Şahalı qızının adına verilmiş Torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Pirsaat qəsəbə İƏD üzrə nümayəndə Oqtay Salahlıya atası

**İsrafil kişinin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Qarasu kənd İƏD üzrə nümayəndə Mehman Ağayevə əzizi

**Rəsmiyyə xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elnur Əmiraslanova əzizi

**Abdulhüseyn kişinin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Elnur Əmiraslanova əzizi

**Abdulhüseyn kişinin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

"Hacıqabul" qəzetinin kollektivi Elnur Əmiraslanova əzizi

**Abdulhüseyn kişinin**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200